

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 50 (21.711)

11 mart 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Fransa Respublikası Senatının Fransa-Qafqaz Dostluq Qrupunun sədri Andre Reyşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Andre Reyşarın Fransa senatorlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin önəmini qeyd edən dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı fürsət yaradacağını deyib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığımızın möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub, Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya gözlənilən səfəri zamanı iqtisadi, enerji, Avropa İttifaqı çərçivəsində əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin müzakirə olunacağı vurğulanıb.

Söhbət zamanı Azərbaycan ilə Fransa arasında energetika, ekologiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında da fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 25-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları da vardır.

**Əliyev Sahil Asəf oğlu – polkovnik-leytenant**

**Qarayev Hüseyn Ərrəhman oğlu – mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

İcmal

## Mühüm strateji hədəfləri reallaşdıran Naxçıvan blokada vəziyyətində özünəməxsus inkişaf modeli yaradıb

### *Ötən ay əldə edilən nəticələr bunu bir daha təsdiq edir*

***İctimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olan, sürətlə müasirləşərək qarşıya qoyulan strateji hədəfləri reallaşdıran Naxçıvan Muxtar Respublikası blokada vəziyyətində özünəməxsus inkişaf modelini yaradıb. Elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində bu gün muxtar respublika böyük uğurlara imza atır, qədim diyarda yaradılan bir sıra istehsalat müəssisələri onun ixrac potensialını artırır, xarici ticarət, həmçinin mədəniyyət əlaqələrinin genişlənməsinə şərait yaradır. Bu çərçivədə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında mövcud əlaqələr daha da inkişaf edir.***



Muxtar respublikalar arasında qarşılıqlı rəsmi səfərlər ikitərəfli münasibətləri yeni inkişaf mərhələsinə yüksəldib. 2012-ci ilin iyun ayında Acarıstan Muxtar Respublikasının nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfəri bu baxımdan yaddaqalan olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən görüş zamanı ikitərəfli əlaqələrin daha sürətlə inkişafı üçün bir çox sahələr üzrə müzakirələr aparılıb. Həmin görüşdə Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında imzalanan "Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstanın Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum" muxtar respublikalar arasındakı əlaqələrin ən yüksək səviyyəyə çatdığını sübut edən əsaslı sənəd kimi diqqəti cəlb edir.

2014-cü il iyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Gürcüstanın Acarıstan Hökuməti Sədrinin dəvəti ilə Batumiyə səfəri isə bir daha göstərdi ki, hər iki muxtar respublikanın qarşılıqlı əlaqələrinin bütün sahələr üzrə genişləndirilməsi üçün münbit şərait və real imkanlar mövcuddur. 2015-ci il oktyabrın 4-də Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri Avtandil Beridzenin Naxçıvana səfəri zamanı keçirilən görüşlərdə qarşılıqlı, faydalı əlaqələrin gələcəkdə də sürətlə inkişaf edəcəyi qeyd olunub. 2016-cı il iyunun 11-də Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfərə gəlib. Naxçıvanda keçirilən görüşdə əlaqələrin gələcək inkişaf perspektivləri müzakirə edilib.

Ötən ayın 1-də isə Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Zurab Pataradzenin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze arasında görüş olub.

Görüşdə bundan sonra da ikitərəfli əlaqələrin inkişafı üçün səylərin göstəriləcəyinə əminlik ifadə olunub. Bunun üçün əsaslı zəmin də var. Çünki bu gün Acarıstan və Naxçıvan Muxtar respublikaları arasında əlverişli biznes və investisiya mühiti mövcuddur. Hazırda iqtisadi-ticarət, təhsil, mədəniyyət, səhiyyə və nəqliyyat sahələrində əlaqələr inkişaf etdirilir, qarşılıqlı əməkdaşlıq daha da möhkəmlənir. Gələcəkdə Naxçıvanla Batumi arasında hava nəqliyyatı əlaqələrinin yaradılması məsələləri də nəzərdən keçirilir. Digər tərəfdən, dünyanın siyasi tarixinə nəzər yetirdikdə bir daha aydın olur ki, dostluqlar, əməkdaşlıqlar dərin tarixi köklərə söykəndiyi zaman daha etibarlı, sıx və davamlı olur. Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında qarşılıqlı əlaqələr də məhz dərin tarixi köklərə söykəndiyi üçün bu gün çox sürətlə inkişaf edir, möhkəmlənir. Hər iki tərəfin əməkdaşlığa verdiyi yüksək qiymət isə əminliklə deməyə əsas verir ki, muxtar respublikalar arasındakı qarşılıqlı münasibətlər bundan sonrakı mərhələdə daha sürətlə inkişaf edəcəkdir.

Bu gün muxtar respublikada ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilərək doğma Azərbaycanımızın quruculuq salnaməsi layiqli nümunələrlə zənginləşdirilir, strateji əhəmiyyət kəsb edən, gələcəyə hesablanmış kənd mərkəzləri layihəsi həyata keçirilir. Qədim diyarın şəhərləri, qəsəbələri ilə birlikdə kəndləri də abadlaşdırılır, müasir görkəm alır. Yol tikintisi, təhsil, səhiyyə və digər sosial təyinatlı obyektlərin istifadəyə verilməsi, sakinlərin məşğulluğunun təmin olunması kəndlərdə şəhər rahatlığı yaradıb, insanların yaşayış səviyyəsi yüksəlib, məskunlaşma artıb. Yeni inzibati binalar, müasir məktəblər, yollar kənd sakinlərinin rahat yaşayışını təmin edir. Fevralın 1-də Şərur rayonunun Çəmənli və Arpaçay kəndləri də muxtar respublikanın abadlaşan kəndləri sırasına qoşulub, həmin kəndlərdə yeni sosial obyektlər istifadəyə verilib. Hər iki yaşayış məntəqəsində kənd və xidmət mərkəzlərinin, Çəmənli kəndində isə həm də yeni məktəb binasının istifadəyə verilməsi, Dərvişlər-Arpaçay-Çəmənli-Babəki kənd avtomobil yolunda əsaslı yenidənqurma işlərinin aparılması dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının ifadəsidir.

Muxtar respublikada hər il yeni məktəb binaları tikilərək istifadəyə verilir, bütün yaşayış məntəqələrində yeni texnologiyalarla təchiz olunan mütərəqqi tədris metodları tətbiq edilir, gənc nəslin hərtərəfli təhsil alması, peşə sahibi olması və vətənpərvər böyüməsi üçün bütün tədbirlər görülür. Bu tədbirlərin davamı olaraq fevralın 15-də Şahbuz rayonunun Kolanı kəndində yeni məktəb binası istifadəyə verilib. Yeni məktəb binası həm müəllimlərin, həm də valideynlərin uzun illərdən bəri ürəklərində olan arzularının həyata keçməsi deməkdir.

Ötən ay çoxəsrlik Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 93-cü ildönümü tamam olub. Naxçıvanın muxtariyyət qazanması ilə birlikdə düşmənlərimizin ölkəmizə qarşı həyata keçirməyə çalışdığı çirkin planlara ciddi zərbə vurulub. Dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasını Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət adlandırması da bu baxımdan təsadüfi deyil.

Ötən ayın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 93-cü ildönümü günündə mükafatların təqdim olunması münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublika əhalisini və tədbir iştirakçılarını təbrik edərək deyib: ***"Ötən 93 il ərzində Naxçıvanın muxtar respublika kimi yaşaması nəticəsində onun ərazisi qorunmuş, muxtar respublika inkişafa qovuşmuşdur. Bu inkişaf müstəqillik dövründə daha da artmış, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə uğurlar qazanılmışdır. Ümummilli liderimizin siyasi xəttinə sədaqətin bəhrələri şəhər və rayon mərkəzlərinin, qəsəbə və kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların həyat şəraitinin yaxşılaşmasında, ordu quruculuğunda özünü göstərir. Artan iqtisadi imkanlar muxtar respublikada elmin, təhsilin və mədəniyyətin inkişafına da öz təsirini göstərmiş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır. Naxçıvan tarixi sistemli şəkildə tədqiq olunmuş, abidələrimiz bərpa edilmiş, tariximizə və mədəniyyətimizə aydınlıq gətirən elmi əsərlər, kitablar və ensiklopediyalar, o cümlədən "Naxçıvan tarixi" çoxcildliyi nəşr olunmuşdur".***

Bu gün Naxçıvan Muxtar Respublikası özünün tarixinə və milli dəyərlərinə sahib çıxır. Naxçıvanın zəngin tarixinin hərtərəfli, sistemli şəkildə araşdırılması təkcə bu qədim diyarın keçdiyi şərəfli yolun öyrənilməsi baxımından deyil, bütövlükdə Azərbaycanımızın tarixinin kompleks tədqiqi üçün də böyük əhəmiyyətə malikdir. Gənc nəslin milli dəyərlər əsasında tərbiyə olunması sağlam gələcəyimizin formalaşmasına xidmət edir.

Tədbirdə mükafatlar təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 9 fevral tarixli Sərəncamına əsasən "Naxçıvan tarixi" çoxcildliyi elm sahəsində Naxçıvan Muxtar Respublika Mükafatına layiq görülüb.

Muxtar respublikamız qonşu ölkələrlə də iqtisadi-ticarət, mədəniyyət əlaqələrini genişləndirir. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında səmərəli

Ardı 2-ci səhifədə

iqtisadi-ticarət əlaqələri qurulub. Həyata keçirilən tədbirlər əməkdaşlıq üçün yeni istiqamətlər açır. Münasibətlərin inkişafının göstəricisidir ki, bu gün qonşu İran İslam Respublikası üçün əlamətdar günlər muxtar respublikada da qeyd olunur. Fevralın 10-da İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən İran İslam Respublikasının yaranmasının 38-ci ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil edilib.

Naxçıvan bu gün dünyaya açılır. Qədim tarixi, zəngin mədəniyyəti, müasir inkişafı və ekoloji təmiz məhsulları hesabına muxtar respublikaya hər il yüz minlərlə turist gəlir, qarşılıqlı ticarət əlaqələri inkişaf etdirilir, Naxçıvan məhsulları xarici ölkə bazarlarında böyük rəğbət qazanır. Bununla birlikdə unutmuruq ki, belə olan halda dünyada gedən istənilən proses ölkəmizə, o cümlədən muxtar respublikamıza da təsirsiz ötüşmür. Xüsusən də qlobal iqtisadi böhranın hökm sürdüyü dövrümüzdə bir sıra məsələlərə daha çox diqqət yönəltmək artıq zərurətə çevrilib.

***“Bu gün dünyada gedən böhrandan qorunmağın ən yaxşı yolu sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsindən və yerli istehsalın inkişaf etdirilməsindən keçir”***, – deyən Ali Məclisin Sədri bildirib ki, bu, bir tərəfdən idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən əhali məşğulluğuna əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə həyata keçirilən tədbirlər öz nəticəsini göstərib, yeni istehsal müəssisələri fəaliyyətə başlayıb və yerli istehsalın həcmi artıb. 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, hazırda 366 adda məhsul istehsal edilir. Yeni yaradılan sahibkarlıq müəssisələri əhalinin 344 növdə məhsula olan tələbatının tamamilə yerli istehsal hesabına ödənilməsinə imkan verib.

Fevralın 11-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı o da qeyd olunub ki, 1996-cı ildə muxtar respublikada, ümumilikdə, 40 sənaye müəssisəsi vardısa, bu gün onların sayı 11 dəfə artırılaraq 442-yə çatdırılıb. Yeni fəaliyyətə başlayan müəssisələr, əsasən, yerli xammaldan istifadə etməklə öz fəaliyyətlərini qurublar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehlakçılara çatdırılmasına imkan yaradır. Hazırda muxtar respublikada mövcud olan 442 istehsal müəssisəsindən 311-i və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Bu hesaba bir tərəfdən digər sahələr də inkişaf edir, ikinci tərəfdən isə daxili bazar etibarlı şəkildə qorunur.

Ali Məclisin Sədri sahibkarlığın çoxşaxəli inkişafının əhəmiyyətini qeyd edib, muxtar respublikada bu sahədə görüləcək işləri diqqətə çatdırıb.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 6 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib. Bu kreditlər kənd təsərrüfatı texnikalarının alınması, heyvandarlıq, plastik tara istehsalı və bağçılıq təsərrüfatlarının yaradılmasına sərf olunacaqdır.

Əvvəlki illərdə olduğu kimi, bu il də Naxçıvanda tikinti-quruculuq tədbirləri davam etdiriləcək. Cari ildə muxtar respublikanın 7 kəndində kompleks quruculuq işləri aparılacaq. Fevralın 23-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında həm də bu barədə danışılıb.

Sessiyada həmçinin 2017-ci ildə sosial-iqtisadi inkişaf sahəsində qarşıda duran vəzifələr müzakirə olunub, müvafiq qurumlara konkret tapşırıqlar verilib, “Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edilib, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu oxunub və səsə qoyularaq qəbul edilib.

Naxçıvan Muxtar Respublikasında hər il Xocalı soyqırımı qurbanlarının xatirəsi əziz tutulur, şəhər və rayonlarda anım tədbirləri keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 24 yanvar tarixli Sərəncamına əsasən ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da Xocalı soyqırımının iyirmi beşinci ildönümü qeyd olunub. Fevralın 25-də Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksində bu münasibətlə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edib.

Fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəfər Ocaqla görüşüb.

İslam mədəniyyətinin tarixində özünəməxsus yer tutan, müasir inkişafı ilə diqqətləri özünə cəlb edən, gündən-günə daha da gözəlləşən qədim diyar bir ildən sonra çox əhəmiyyətli bir missiyanı yerinə yetirəcəkdir. Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alacaq. Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı olması muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə, beynəlxalq səviyyədə mədəniyyət aləmində böyük irəliləyişlərin müjdəçisi kimi tarixdə qalacaqdır.

Bununla əlaqədar muxtar respublikamızda hazırlıq işləri bütün istiqamətlər üzrə uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” loqotipinin hazırlanması haqqında” 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi və Rəssamlar Birliyi tərəfindən loqotipin hazırlanması üçün yaradıcılıq müsabiqəsi elan edilib. Müsabiqə iştirakçıların fəallığı şəraitində keçib, 40-a yaxın iştirakçı tərəfindən 70-dən çox loqotip nümunəsi təqdim olunub. Onu da qeyd edək ki, müsabiqəyə həm də muxtar respublikadan kənarda yaşayan yaradıcı insanlar – rəssamlar, memarlar və tələbələr tərəfindən müxtəlif məzmunda loqotip nümunələri təqdim edilib. Loqotiplər Mədəniyyət və Turizm Nazirliyinin və Rəssamlar Birliyinin birgə təşkil etdiyi komissiya tərəfindən qiymətləndirilib. Qiymətləndirmə zamanı yaradıcı yanaşma, işin təsiredici qüvvəyə malik olması və asan qavranılması ilə yanaşı, həmin loqotipin Naxçıvanın türk-islam mədəniyyəti nümunələrini, eləcə də qədim tarixini və müasirliyini əks etdirməsinə üstünlük verilib.

Fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” loqotipinin seçilməsi ilə bağlı tədbir keçirilib.

Ali Məclisin Sədri müsabiqənin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

Ali Məclisin Sədri qeyd edib ki, təqdim olunmuş loqotiplərdən mövzunun əhatə olunması baxımından ən uyğunu müəllifi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Tapdıq Həmzəyev olan loqotipdir. Burada Naxçıvanın həm türk, həm də İslam mədəniyyətinin daşıyıcısı olması, Naxçıvanın qədim və müasir tarixi rəmzlərlə çatdırıla bilib.

Təklif olunan loqotipin “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” loqotipi kimi qəbul olunduğunu bildirən Ali Məclisin Sədri müəllif Tapdıq Həmzəyevə qalib olması münasibətilə təbriklərini çatdırıb və ona pul mükafatı təqdim edib.

Tədbirdə qarşıda duran vəzifələr qeyd olunub, əlaqədar qurumlara müvafiq tapşırıqlar verilib. Verilmiş tapşırıqların icrasının əlaqələndirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatına, loqotipin təqdimatının keçirilməsi isə Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə tapşırılıb.

Naxçıvanın mühüm və həssas geosiyasi məkanda yerləşməsi onun elmi şəkildə əsaslandırılmış çevik, tarazlı və çoxtərəfli münasibətlərinin qurulmasını, tarixi-mədəni bağlarımız olan İslam ölkələri ilə iqtisadi və mədəniyyət əlaqələrinin inkişafını zərurətə çevirir. Bu baxımdan İslam Konfransı Təşkilatı çərçivəsində əlaqələrin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı olanda 52 İslam ölkəsinin, o cümlədən nüfuzlu beynəlxalq təşkilatın nümayəndələri Naxçıvana gələcəklər. Bu, muxtar respublikada formalaşan böyük mədəniyyətin, onun iqtisadi və turizm potensialının təqdimatı, əlaqələrin qurulması baxımından əvəzsiz imkanlar yaradacaqdır. Əminik ki, tarixin son beş min ilində Naxçıvan torpağında neçə-neçə sivilizasiyanın izlərini qoyub getmiş insanların çağdaş varislərinin bu gün, sözün həqiqi mənasında, qədim diyarda yaratdıqları xariqələr hər kəsin diqqətini cəlb edəcək, Naxçıvanın blokada vəziyyətində əldə etdiyi sürətli inkişafın özünəməxsus milli inkişaf modeli bir daha alqışlanacaqdır.

✍ **Rauf KƏNGƏRLİ**

---

12 mart Daxili Qoşunlar Günüdür

# Naxçıvan Əlahiddə Əməliyyat Briqadası güclü maddi-texniki bazaya malikdir

*Ümummilli liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si Azərbaycan Respublikasının Daxili Qoşunlar Günü kimi qeyd olunur.*

Azərbaycanda Daxili Qoşunların formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul olunmuş “Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə Daxili Qoşunların əsas funksiyaları, vəzifələri və fəaliyyət prinsipləri müəyyən edilmişdir.



Ulu öndərimiz tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. ***“Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir. Bu istiqamətdə Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir”***, – deyən ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası gücləndirilir.

1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı “N” hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli Sərəncamı ilə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.



Bu gün Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə ötən dövrdə briqadanın maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir. Aparılan islahatlar, döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminat və hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Yüksək mənəvi-psixoloji hazırlığa nail olunmadan hərbi xidməti düzgün təşkil etmək mümkün deyil. Buna görə də şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Son illər briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasir qazanxanalar və digər sosial məişət obyektləri inşa edilmiş, hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilmişdir. Zabit-gizir ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 60 və 45 mənzildən ibarət iki beşmərtəbəli və 12 mənzildən ibarət üçmərtəbəli yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının müasir döyüş texnikaları ilə təmin olunması da diqqət mərkəzində saxlanılır. Bu gün briqadada xidməti vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait yaradılmışdır. Həyata keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daha da yüksəldir. Hazırda Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında ciddi nizam-intizam vardır. Cəmiyyətin və dövlətin mənafeyinin qorunmasında, habelə ictimai asayişin mühafizəsində daim sayıqlıq nümayiş olunur, əsgər və zabitlər üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Şəxsi heyət qarşıya qoyulmuş tapşırıqları operativ yerinə yetirir. Hazırlığın yüksək səviyyədə saxlanması ictimai təhlükəsizliyin təmin edilməsində, eləcə də xüsusi əməliyyatlarda şəxsi heyətin böyük təcrübələr qazanmasına şərait yaradır. Şəxsi heyətin yeni silahlardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq metodik təlim toplantıları, səhra çıxışları və döyüş atışlı taktiki təlimlər keçirilir.

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını etibarlı qoruyacaqdır.

***Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası***



# Zeynəddin bu gün müasir Azərbaycan kəndidir

## Yaradılan şərait insanların yurda, torpağa bağlılıq hisslərini daha da gücləndirib

***Babək rayonunun müasirliyə qovuşmuş kəndlərindən biri də Zeynəddindir. Muxtar respublikamızın qədim yaşayış məntəqələrindən olan Zeynəddinin tarixini göstərən faktlardan biri ərazisində eradan əvvəl V-III minilliklərə aid "Dəyirman yeri" arxeoloji abidəsinin tapılmasıdır.***



AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında Zeynəddin barədə yazılır ki, 1727-1728-ci illərdə qeydə alınan bu kəndin tarixi daha qədimlərə gedib çıxır. Zeynəddin antroponim addır. Kəndin əsası həmin şəxs tərəfindən qoyulub. K.N.Smirnov isə belə hesab edir ki, kənd burada yaşayan hər hansı sufinin adı ilə əlaqədardır.

Bu gün kənd qədimliyi ilə yanaşı, müasir görünüşü ilə də gələn qonaqların diqqətini cəlb edir. Son illərdə muxtar respublikada aparılan abadlıq-quruculuq işlərindən bu kəndə də xeyli pay düşüb. Müasir tələblərə cavab verən kənd mərkəzi, həkim ambulatoriyası, orta məktəb və musiqi məktəbi binalarının tikilərək istifadəyə verilməsi bunun bariz nümunəsidir. Kənddaxili yollar genişləndirilib, asfalt örtük salınıb. Kənd camaatının içməli suya olan tələbatını tam ödəmək üçün artezian quyuları qazılıb. Elektrik enerjisinin verilməsində yaranan problemlərin aradan qaldırılması üçün yeni transformatorlar quraşdırılıb. Köhnə elektrik dirəkləri yeniləri ilə əvəz olunub.

Kənd sakini Yəhya Zeynalov deyir ki, əvvəllər əhali elektrik enerjisi sarıdan çox əziyyət çəkib. O qeyd edir ki, 90-cı illərin əvvəllərində saatlarla elektrik enerjisinin verilişini gözləyərdik. O vaxtlar gün ərzində cəmi 4-5 saat elektrik enerjisi verilirdi. Necə deyərlər, qışda soyuqdan əziyyət çəkərdik, yayda istidən. O zamanlar insanların əli torpaqdan soyumuşdu. Çünki sabaha inam yox idi. Ancaq yaxşı ki, bu çətin günlər tez bir zamanda arxada qaldı. Dahi rəhbər Heydər Əliyev Naxçıvana qayıdanda Zeynəddin kəndinin sakinlərinin də ürəyində sabaha ümid qığılcımları közərdi. Artıq hər kəs anladı ki, bu torpağın, bu diyarın əsl sahibi gəlib. Nə olursa-olsun, O, insanları darda qoymayacaq. Beləcə, yavaş-yavaş Zeynəddin kəndinin sakinlərinin gün-güzəranı da yaxşılaşdı. Torpaqların kəndliyə qaytarılmasından sonra hər kəs öz payına düşən torpaqda əkib-becərdi, gün-güzəran yaratdı. Övladlarımız yaxşı təhsil almağa başladılar. Bu gün ulu öndərin davamçılarının gördüyü işlər bütün muxtar respublika sakinləri kimi, zeynəddinlilər tərəfindən də minnətdarlıqla qarşılanır.

Əvvəllər kənd məktəbi deyiləndə uçuq-sökük tikililər, köhnə avadanlıqlar, kömür sobaları, qırıq taxta parçaları ilə örtülmüş pəncərələr yada düşürdü. Başqa sözlə, bu mənzərələr klassik kənd məktəbinin dəyişməz nümunəsi idi. Ancaq 1995-ci ildən sonra qurucu insanlar bu mənzərəni tamamilə dəyişdi. Elə bu dəyişiklikdən Zeynəddin kənd məktəbi də öz payını alıb. Kəndin gələcək perspektivi nəzərə alınaraq inşa edilən 612 şagird yerlik 2 mərtəbəli məktəb binasında 34 sinif, hərbi, kimya, biologiya kabinələri, iki kompüter sinfi, kitabxana vardır.

İllər öncə bir kompüterin belə olmadığı kənddə indi, demək olar ki, evlərin əksəriyyətində sürətli internetdən istifadə olunur. Məktəbdə informatika dərslərinin ən yüksək səviyyədə tədrisi nəticəsində şagirdlər müasir kompüter proqramlarından rahatlıqla istifadə edə bilirlər. Burada 17 dəst kompüter quraşdırılıb ki, bunlardan da 9-u internetə qoşulub. Təhsil ocağında mütəmadi olaraq interaktiv dərslər təşkil edilir, muzeylərlə məktəb arasında virtual əlaqə yaradılır.

Bu gün kəndin uşaq və yeniyetmələrinin, eləcə də gənclərin ən çox üz tutduğu ünvanlardan biri də məktəbin kitabxanasıdır. Hazırda kitabxana fondunda 8 min 125 dərslik və 3 min 525 bədii ədəbiyyat olmaqla, 11 min 650 kitab vardır. Xüsusən yuxarı sinif şagirdləri ilə söhbətlərimiz zamanı bir daha aydın olur ki, bu günün məktəblisi klassik və müasir dünya ədəbiyyatı, eləcə də Azərbaycan söz sənəti haqqında müfəssəl biliklərə malikdir.

Sevindirici haldır ki, hər il olduğu kimi, ötən buraxılış ilində də məktəbin şagirdləri ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticələr göstəriblər. İmtahanlarda iştirak edən məzunlardan 10 nəfəri ali məktəblərə qəbul olunub.

Təhsil ocağında müasir idman zalı da yaradılıb. Hər il rayonda keçirilən idman yarışlarında məktəbin şagirdləri yüksək nailiyyətlər qazanırlar. Ötən il də bu uğuru davam etdiriblər. Müxtəlif yarış növlərində güclərini sınayan məktəbin idmançı şagirdləri güləş yarışlarında 1-ci yeri, voleybol yarışlarında 2-ci yeri tutublar.

Uşaqların musiqi təhsilinə marağı nəzərə alınaraq orta məktəbin yanında yaraşıqlı musiqi məktəbi də tikilib. Burada qarmon, piano, skripka, kamança, qanun, nağara, tar və xanəndəlik ixtisasları öyrədilir.

Münbit torpaqların, su mənbələrinin olması kənd əhalisinin əkinbiçinlə və heyvandarlıqla məşğuluna şərait yaradır. Yaz fəsli gələndə gözoxşayan taxıl zəmiləri, çiçək açan bağçalar insanı valeh edir. İqtisadi səmərəlilik baxımından gəlirli sahələrdən olan üzümçülüyə bu kənddə maraq böyükdür. Ölkə rəhbəri cənab İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 15 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində Babək rayonunda görülən işlər Zeynəddin kəndini də əhatə edib.

Yaşlı sakinlərdən olan Əsgər Əliyevin dediyinə görə, əvvəllər bu kənddə böyük üzüm sahələri olub. Elə indi də kənd camaatının əksəriyyətinin həyətyanı sahəsində məhsuldar üzüm bağları var. Zeynəddində üzümün bir çox sortları yetişdirilir. Bunlardan sarı və qara kişmişi, əsgəri, xəlili, haçabaş və digər sortları göstərmək olar. Üzümdən kişmiş, mövüc, doşab, sirkə hazırlamaq kənd əhalisinin əsas məşğuliyyətlərindəndir. Belə məhsullara ilboyu bazarda tələbat olur. Üzümçülüklə məşğul olan torpaq mülkiyyətçilərindən Aslan Məmmədov, Ölkə Hacıyeva və Mirhəbib Seyidov sırf kişmiş istehsalı ilə məşğul olurlar.

Kənddə meyvə-tərəvəzçilik də geniş inkişaf etmiş sahələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" kəndin bu sahə ilə məşğul olan torpaq adamları üçün geniş imkanlar açıb. Bunun nəticəsidir ki, kənddə meyvə bağları salınır, mövcud bağlardakı ağacların məhsuldarlığının artırılması məqsədilə seleksiya tədbirləri həyata keçirilir. Mövsüm boyu bir çox ailələrin bütün fərdləri tarla işlərinə cəlb edilirlər. Çünki iş o qədər çox olur ki, bunun öhdəsindən tək bir nəfər gələ bilmir. Kağlama, vərqoyma, dibdoldurma və sair kimi işlər çox əmək tələb etdiyindən evin hər bir sakininin köməyinə ehtiyac duyulur.

Zeynəddində olarkən buradakı gülçülük təsərrüfatına da baş çəkdik. Əsəd Abbasovun yaratdığı gülçülük sahəsi qısa bir müddətdə tanınıb. Gülçülük təsərrüfatı 2014-cü ilin aprel ayında yaradılıb və 4 min 600 kvadratmetr olan sahədə 8 istixanaya 9 növdə 50 min gül şitili əkilib. Təsərrüfatda güllərin damcı üsulu ilə suvarılmasının təşkili, temperaturun normada olmasının xüsusi aparatlar vasitəsilə tənzimlənməsi, torpağa edilən qulluq, xəstəliklərə qarşı tədbirlərin diqqətlə aparılması məhsuldarlığı artıran amillərdəndir.

Sahibkar Əsəd Abbasov bildirir ki, 12 ildir, gül satışı ilə məşğuldurlar. Vaxtilə ölkəmizin paytaxtı Bakı şəhərindən, İrandan, Türkiyədən gül gətirib Naxçıvan şəhərindəki "Al çiçəyim" mağazasında satışını təşkil ediblər. Üç il öncə özləri təsərrüfat yaratmağa qərar veriblər. Ötən il Sahibkarlığa Kömək Fondundan 30 min manat kredit götürüb təsərrüfatı böyüdüblər. İstixanaları birləşdirərək, min kvadratmetr də artıraraq 5 min 600 kvadratmetrə çatdırıblar. İndi növbənöv güllər təkcə Naxçıvanda deyil, Bakı şəhərində də özünə yaxşı alıcı qazanıb. Amma onlar daha geniş bazarlara çıxmağı qarşılarına məqsəd qoyublar. Bu gün Rusiya Federasiyasının Moskva, Krasnodar şəhərlərində və Ukraynada da Naxçıvan gülləri satışa çıxarılır.

*Bəli, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələri kimi, Zeynəddin kəndinin sakinləri də rahat yaşayırlar. Bütün bu gözəl şəraiti isə dövlətimiz yaradıb. Yaradılan şəraitdən düzgün istifadə etmək, tikilənləri, qurulanları qorumaq isə hər birimizin vətəndaşlıq borcudur.*

**Nail ƏSGƏROV**

*Son dövrlər muxtar respublikada əhalinin keyfiyyətli yerli ərzaq məhsulları ilə etibarlı təminatı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, səmərəli məşğulluq təmin edilmişdir.*

# Muxtar respublikada arıçılıq sahəsi inkişaf etdirilir

Əhalinin özünüməşğulluğunun təmin edilməsində mühüm yer tutan arıçılığın inkişafı üzrə də genişmiqyaslı tədbirlər, o cümlədən beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfranslar keçirilmiş, sahibkarlar pulsuz dərman preparatları ilə təmin edilmişdir. Təkcə 2016-cı ildə arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə 335 min 600 manat, ümumilikdə, son beş il ərzində 2 milyon 341 min 600 manat həcmində kreditlərin verilməsi bu sahənin inkişafına geniş imkanlar yaratmışdır.

Arıçılıq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək, arıçıların rastlaşdıqları problemlərin vaxtında həllinə nail olmaq məqsədilə "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyi yaradılmışdır.

1 yanvar 2017-ci il tarixə muxtar respublikada 70 min 537 arı ailəsi mövcud olmuşdur ki, bu da 1 yanvar 1996-cı il tarixə olan göstəricidən 8,8 dəfə çoxdur. Ümumi arı ailələrinin 9056-sı Şərur, 9736-sı Babək, 13573-ü Ordubad, 13710-u Culfa, 1607-si Kəngərli, 20195-i Şahbuz, 645-i Sədərək rayonlarının, 2015-i isə Naxçıvan şəhərinin payına düşmüşdür. Naxçıvan Muxtar Respublikası arı ailələrinin say göstəricisinə görə ölkə üzrə ilk yerdə təmsil olunmuşdur.

Arı ailələrinin artımı məhsul istehsalına da müsbət təsir etmiş, 2016-cı ildə muxtar respublikada 1403 ton bal istehsalı qeydə alınmışdır. Bal istehsalı bir il öncəyə nisbətdə 0,5 faiz, 1995-ci illə müqayisədə isə 14,6 dəfə çox olmuşdur.

Muxtar respublikada arıçılığın inkişafını stimullaşdırmaq məqsədilə ilk dəfə 2016-cı ildə Naxçıvan şəhərində "Arıçılıq məhsulları – bal festivalı" keçirilmişdir.

İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramında qarşıya qoyulan hədəflərə nail olmaq üçün həyata keçirilən mühüm tədbirlər arıçılığın inkişafına, arıçılıq məhsullarının ixracının stimullaşdırılmasına, ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafına geniş imkanlar yaradacaqdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

# Ailə təsərrüfatlarının inkişafı üçün yaradılan münbit şərait öz bəhrəsini verir

***Nümunəvi ailə təsərrüfatları qurub, daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin edən və təbii ki, əldə etdiyi gəlirlə təsərrüfatını ildən-ilə genişləndirən, ailə büdcəsini daha da möhkəmləndirən təsərrüfatların sayı bu gün yüzlərdədir. Onlardan biri – Culfa rayonunun Ləkətağ kəndində yaşayan Alıyar Quliyevlə elə onun yaşadığı ünvanda görüşüb, yaratdığı təsərrüfatla tanış olduq.***

Alıyar Quliyevlə söhbətimizdə dedi ki, təsərrüfatçılığa həmişə maraq göstərmişəm. İllər keçdikcə, gəlirim artır, bu sahəyə daha ürəkdən bağlanırdım. Məhsulları – əti, yağı, südü, pendiri, qatığı, qaymağı bazara çıxarıb satır, əldə etdiyim gəlirlə özümüzə yaxşı gün-güzəran qururdum. Bir müddət sonra təsərrüfatımı genişləndirdim. Heyvandarlıqla məşğul olan sahibkarlar yaxşı bilirlər. Vaxtında kifayət qədər yem tədarük etməsən nə təsərrüfatı saxlaya, nə də gəlir götürə bilərsən. Həyətyanı torpaq sahəsində, təbii biçənəklərdə texnika ilə biçin aparmaq mümkün olmadığından kərənti ilə ot biçib, yem tədarük edirdik. Bu da, təbii ki, çox çətin və vaxt aparan bir iş idi. 2010-cu ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən 40 faiz güzəştlə əl üçün otbiçən aldıq. Artıq dağ yamaclarındakı biçənəklərimizi belə, rahatlıqla biçirik. Bizim üçün bundan yaxşı nə ola bilər?

"Kənddə yaşayan hər kəs ailəsini təmin edəcək və bazara çıxarılacaq qədər kənd təsərrüfatı məhsulları istehsal etməyə çalışır. Bunun üçün hər cür şərait yaradılıb. Bu şəraitdən maksimum bəhrələnməli, təsərrüfatımızı daha da genişləndirməliyik", – deyən sahibkar onu da qeyd etdi ki, bir müddət əvvəl iki arı (beçə) alıb heyvandarlıqla yanaşı, arıçılıqla məşğul olmağa başlamışdım. Məqsədim ən azı ailəmizi təmin edəcək qədər bal istehsal etmək idi. Amma illər keçdi, nəinki ailəmizi təmin edəcək, hətta bazara məhsul çıxaracaq qədər bal əldə etmək imkanı yarandı. Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları – bal festivalı"na digər sahibkarlar kimi mən də məhsullarımı çıxardım. Bu da məhsullarımızın tanıdılmasına, satışına, yeni müştərilərin cəlb olunmasına əlverişli şərait yaratdı. Arıçılıqla məşğul olan sahibkarlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, pulsuz dərman preparatları ilə təmin ediliblər.

Elə söhbətimizin bu məqamında Bakı şəhərindən gələn qonaqlar bizə yaxınlaşdı. Alıyar gələn qonaqlarla bizi tanış etdi. Öyrəndik ki, əslən Naxçıvandan olan Aydın, Nadir və Etibar uzun illərdir, Bakıda yaşasalar da, muxtar respublikanın keyfiyyətli kənd təsərrüfatı məhsullarını almaq üçün hər il bura gəlirlər. Onlar bildirdilər ki, muxtar respublika hər il daha da gözəlləşir, kəndlər abadlaşır. Xüsusi vurğuladılar ki, Çeşməbasar kəndindən Ləkətağadək çəkilən avtomobil yolu və bu yol üstündə yerləşən yaşayış məntəqələrində aparılan abadlıq-quruculuq tədbirləri, istifadəyə verilən məktəb binaları, kənd və xidmət mərkəzləri insanı valeh edir. Artıq muxtar respublikada kəndlərə şəhər görkəmi verilib, şəhər rahatlığı yaradılıb. Bu əsrarəngiz gözəlliyi biz də seyr etdik. Dost-tanışlarımıza da bura səfər etmələrini tövsiyə edəcəyik...

Alıyar hər biri üçün hazırlanmış bağlamaları – balı, pendiri, yağı, çaşırı, sobu turşusunu, cəviz kisəsini maşına yığdı. Nadir bal yığılmış qabın qapağını açıb bir qaşıq götürüb dadına baxdı. Araya çökən sükutu da elə Alıyar pozdu.

– Hə, necədir? Niyə danışmırsan?

– Danışa bildim, danışmadım? Boğazımı yandırdı. Məhsula söz ola bilməz. İnşallah bu il bizim payımızı bir az da artırarsan, – deyib xudahafizləşdilər.

Biz də sahibkara uğurlar arzulayıb oradan ayrıldıq. Son illər istifadəyə verilən Çeşməbasar-Boyəhməd avtomobil yolu və yol kənarında yerləşən ayrı-ayrı yaşayış məntəqələrində ucaldılan quruculuq ərmağanlarını və Naxçıvanın yenilməzlik simvolu Əlincəqalanı seyr edə-edə Naxçıvan şəhərinə yollandıq...

**✍ Kərəm HƏSƏNOV**

## Naxçıvanda Milli Teatr Günü qeyd olunub





*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir.*

Vurğulanıb ki, 1873-cü ilin mart ayında M.F.Axundzadənin "Lənkəran xanının vəziri" tamaşası ilə əsası qoyulmuş Azərbaycan peşəkar teatrı çətin və şərəfli inkişaf yolu keçib. Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan milli teatrının qazandığı böyük nailiyyətlərə bağlı deyirdi: "Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var. Milli teatr bu gün də, gələcəkdə də yaşayacaqdır".

Mədəniyyət tariximizin parlaq səhifələrini şərəflə yazan milli teatrımız ulu öndərimizin respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə böyük inkişaf yolu keçib, teatrlara xüsusi diqqət və qayğı göstərilib, aktyor və rejissorların səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.

"Teatrlara diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Son illər bu sahədə mühüm islahatlar həyata keçirilib, teatr binaları yenidən qurulub. 2006-cı ildə qəbul olunmuş "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı" milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir", – deyən Natəvan Qədimova diqqətə çatdırıb ki, muxtar respublikamızda da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binalarının hamısı yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu gün muxtar respublikada fəaliyyət göstərən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların estetik zövqünün formalaşmasında, asudə vaxtının mənalı təşkilində əhəmiyyətli rol oynayır. Müstəqillik illərində muxtar respublikada fəaliyyət göstərən teatrların yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, bu kollektivlər milli dəyərlərimizin peşəkar təbliğatçısına çevriliblər.

Qeyd olunub ki, muxtar respublikada teatr sənətinə könül verənlərin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2008-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi yüksək səviyyədə qeyd edilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamına əsasən, ötən il Naxçıvan teatrının yaradıcılarından olan görkəmli şəxsiyyətin yubileyi qədim diyarımızda geniş qeyd olunub. Teatr sahəsində çalışan yaradıcı insanlar hər il Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 mart tarixli Sərəncamına əsasən bir qrup teatr xadiminə fəxri adlar verilib ki, onların arasında Naxçıvan Dövlət Uşaq Teatrının direktoru Tofiq Seyidov və Şərur Rayon Xalq Teatrının rejissoru Neymət Sultanov da var.

Nazir çıxışının sonunda bildirib ki, xalqımızın zəngin mədəniyyətini yaşatmaq, gənclərin vətənpərvərlik duyğularını gücləndirmək, yüksək estetik-mənəvi təsirə malik olan əsərləri səhnəyə gətirmək bu gün teatrlarımızın qarşısında duran əsas vəzifədir. İnanırıq ki, ötən illərdə olduğu kimi, bundan sonra da Naxçıvan teatrları milli dəyərləri qorumaq və təbliğ etmək, tariximizin şərəfli səhifələrini yaşatmaq missiyasını layiqincə yerinə yetirəcəklər.

Sonra səhnədəki ekranda Naxçıvan teatrının 100 illik yubileyindən çəkilmiş kadrlar nümayiş etdirilib. Səhnəyə çıxan aparıcılar Azərbaycan teatrının şərəfli inkişaf yolundan danışaraq M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" əsəri ilə Naxçıvan teatrının əsasının qoyulduğunu bildiriblər. Teatrın aktyorlarının ifasında həmin komediyadan bir səhnə göstərilib.

Tədbirdə aparıcılar qədim diyarımızda fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının uğurlarından da söhbət açıblar və bildiriblər ki, bu sənət ocağı teatrsevərlərin görüşünə Nağı İsmayılzadənin "Ağca və Bozca" tamaşasından bir səhnə ilə gəlib.

Naxçıvanda fəaliyyət göstərən ən gənc teatrlardan olan Naxçıvan Dövlət Uşaq Teatrının da son illərdə hazırladığı tamaşalardan söhbət açılıb. Naxçıvan Dövlət Uşaq Teatrının ifasında Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Həsənəli Eyvazlının "Nadan xoruz" tamaşasından bir səhnə də marağa səbəb olub.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının hazırladığı Xalq yazıçısı Elçinin "Arılar arasında" komediyasından da bir parça göstərilib.

Tədbirin sonunda aktyorlar "Mən aktyoram" mahnısının sədaları altında canlandırdıqları obraz və personajların geyimində səhnəyə çıxıblar.

**Əli RZAYEV**

## Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaradıb



***Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış görkəmli Azərbaycan şairidir. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan verib.***

Bu fikirlər Naxçıvan Dövlət Universitetində "Molla Pənah Vaqif – 300: Azərbaycançılıq məfkurəsi. Poetik ənənə" mövzusunda keçirilən elmi konfransda səsləndirilib.

Konfransda çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Molla Pənah Vaqifin ədəbi irsindən danışıb. Bildirilib ki, Azərbaycan tarixinə həm də siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirib.

Rektor qeyd edib ki, Prezident İlham Əliyevin 2017-ci il yanvarın 12-də imzaladığı "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı şairin yaradıcılığına göstərilən ehtiramın ifadəsidir.

Filologiya üzrə elmlər doktoru, professor Əsgər Qədimov "XIX əsr Ordubad ədəbi mühitində Molla Pənah Vaqif ənənələri" adlı məruzəsində XIX əsrin ədəbi məclislərin meydana çıxması baxımından ən məhsuldar dövr olduğunu qeyd edib, həmin dövrdə Bakıda yaradılmış bir sıra ədəbi məclisləri, Ordubadda isə "Əncüməni-şüəra"nın fəaliyyətindən bəhs edib.

Vurğulanıb ki, Ordubadda yaradılmış ədəbi məclisin 25-ə yaxın üzvü olub və onların bir qismi Sədi, Hafiz, Xəyyam, Nizami, Füzuli kimi klassik Şərq şairlərinin mütərəqqi ənənələrini davam və inkişaf etdirib, ikinci bir qismi isə Molla Pənah Vaqif, Heyran xanım, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov, Qüdsi və başqa realist sənətkarların ədəbi irsindən bəhrələnərək zamanın tələbindən doğan aktual mövzulara müraciət ediblər.

Filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova "Molla Pənah Vaqifin dil-üslub xüsusiyyətləri" adlı məruzəsində görkəmli şairin heca vəznində yazdığı şeirlərdə xalq dilinin zəngin xəzinəsindən sənətkarlıqla istifadə etdiyini, onu ədəbi-bədii dil səviyyəsinə qaldırdığını bildirib.

"Azərbaycan ədəbi dilinin zənginləşməsi və saflaşmasında Molla Pənah Vaqif lirikasının rolu" adlı məruzə ilə çıxış edən universitetin Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi Mədət Səfərov Vaqif lirikasının əsas mövzu və ideya istiqamətlərindən, onun Azərbaycan şeir tarixinin inkişafındakı xidmətlərindən danışıb.

Tədbirin bədii hissəsində universitetin Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə I kurs tələbələri Molla Pənah Vaqifin "Görmədim", "Hayıf ki, yoxdur", "Bax", "Qurban olduğum", "Bəri bax", "Düşərmi" şeirlərini bədii qiraət ediblər.

**Nərmin CƏFƏROVA**

## Gənc alimlərin nümunəvi dərslərinin keçilməsinə başlanılıb

*Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. Bunun nəticəsidir ki, muxtar respublikada istedadlı gənclərin üzə çıxarılması, gənclərin asudə vaxtının səmərəli təşkili, onların intellektual potensialının inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilir.*

Təbii ki, keçirilən tədbirlərdə bütün kateqoriyalardan olan gənclərin iştirakı diqqət mərkəzində saxlanılır. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun iş planında nəzərdə tutulmuş tədbirlər çərçivəsində gənc alimlərlə əlaqələrin inkişafı və bu sahədə layihələrin həyata keçirilməsinə də böyük önəm verilir.

Məhz bu amil nəzərə alınaraq Gənclər Fondu Təhsil Nazirliyi ilə birlikdə muxtar respublikamızın tam orta məktəblərində gənc alimlərin nümunəvi dərslərinin keçilməsi üçün qrafik hazırlayıb. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin gənc alimlərinin – doktorant və dissertantlarının iştirakı ilə müxtəlif fənlər üzrə nümunəvi dərslərin keçilməsi ayda iki dəfə və muxtar respublikanın bütün bölgələrini əhatə etməklə tədris ilinin sonuna qədər davam edəcəkdir. Bu cür dərslərin keçilməsi gənc alimlərlə əlaqələrin artırılması, birgə tədbirlərin həyata keçirilməsi, eyni zamanda məktəblərdə təhsil alan şagirdlərin elmə həvəsləndirilməsinə müsbət təsir göstərəcəkdir.

İlk nümunəvi dərs martın 10-da Naxçıvan şəhərindəki 13 nömrəli tam orta məktəbdə keçilib. AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının kiçik elmi işçisi, doktorant Turac Süleymanovanın kimya fənni üzrə keçdiyi dərs şagirdlər tərəfindən maraqla qarşılanıb. Slaydlar vasitəsilə keçilən dərsdə şagirdlərə azot yarımqrupu elementləri mövzusunda ətraflı məlumat verilib. Şagirdlər dərsdə fəal iştirak edib, onların sualları cavablandırılıb.

Qeyd edək ki, bu cür dərslərin keçilməsi məktəblilərin elmə marağının artırılması, elmi araşdırmalar üzərində işləməyə həvəsləndirilməsi, dünyagörüşünün düzgün istiqamətdə formalaşdırılmasına xidmət edir.

***Xəbərlər şöbəsi***

## Qadın mədəniyyət işçilərinin onkoloji müayinələri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq qadınlar arasında süd vəzi xərçəngi xəstəliklərinin aşkar edilməsi üçün kütləvi profilaktik tibbi müayinələr davam etdirilir.*

Hazırda bu tədbir Şahbuz rayonunun mədəniyyət müəssisələrində çalışan qadınlar arasında həyata keçirilir. Bununla əlaqədar keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin baş həkimi Viladi Cabbarov bildirib ki, süd vəzi xərçəngi xəstəliyinin yaranması və inkişafı təhlükəli hesab edilsə də, insanlarda təşviş yaratmamalıdır. Mühüm olan xəstəliyin vaxtında aşkarlanmasıdır. 35 yaşdan sonra hər bir qadın ildə bir dəfə həkim müayinəsindən keçsə, problem erkən mərhələdə müəyyənləşdirilsə, xəstəliklə mübarizə asanlaşır və o, müalicə olunur.

Bu patologiyanın bütün dünyada qadınlar arasında ən çox yayılmış xərçəng növü olduğunu vurğulayan onkoloq digər xəstəliklərdən fərqli olaraq, bu xəstəlikdə yaş amilinin mühüm rolunu qeyd edib. Bildirilib ki, ölkəmizdə son illər onkoloji xidmətin müasir standartlara uyğunlaşdırılması və maarifləndirmə işinin genişləndirilməsinin nəticəsi olaraq xəstəliyin əlamətləri daha erkən aşkarlanır və uğurlu müalicə üsullarından istifadə edilir.

Baş həkim onu da qeyd edib ki, mərkəzin həkimləri tərəfindən ötən il 927 qadın mədəniyyət işçisi arasında süd vəzinin müayinəsi aparılıb, 46 nəfərdə fibroadenoma, mastopatiya və digər patologiya aşkar edilib. Cari ildə isə kütləvi profilaktik tibbi müayinələrə Kəngərli rayonundan start verilib, mədəniyyət müəssisələrində işləyən 20 nəfər qadın işçinin profilaktik tibbi müayinəsi aparılıb.

Sonra Şahbuz rayonunun mədəniyyət müəssisələrində çalışan 57 nəfər qadın mədəniyyət işçisi müayinədən keçib, 3 nəfərdə patologiya aşkar edilib. Onlar mərkəzə dəvət olunublar.

Müayinələr gələn aylarda da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Vəliyev Şulan İmamverdi oğlunun adına verilmiş MH-0035805 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 207